# "Prezidentin qalibiyyət salnaməsi" adlı miniatür kitab çapdan çıxıb

**Bu günlərdə Miniatür Kitab Muzeyi tərəfindən nəfis tərtibatda yeni kitablar işıq üzü görüb. "İndigo" nəşriyyatında nəşr edilən "Prezidentin qalibiyyət salnaməsi" adlı ikicildlik Ümummilli Lider Heydər Əliyevin100 illik yubileyinə həsr olunub. Üç dildə - Azərbaycan, rus və ingilis dillərində, nəfis tərtibatda nəşr olunmuş miniatür kitablar həm də Heydər Əliyevin həyatının müxtəlif illərində çəkilmiş fotoşəkillərlə zəngindir.**







"Prezidentin qalibiyyət salnaməsi" Ulu Öndərdən bəhs edən ilk miniatür kitab deyil. Müxtəlif illərdə Miniatür Kitab Muzeyi tərəfindən Ümummilli Liderə həsr olunmuş onlarla miniatür kitablar işıq üzü görüb. "Prezidentin qalibiyyət salnaməsi" adlı nəfis tərtibatlı kitabın birinci cildində Ümummilli Lider Heydər Əliyevin 1994-cü il iyunun 3-də M.F.Axundzadə adına Dövlət Kitabxanasında "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabının təqdimat sərgisindəki çıxışına yer verilib. Heydər Əliyev o zaman deyib: "Azərbaycanda kitab çapının tarixi böyükdür. Yaxın keçmişdə Azərbaycan Respublikası onun 400 illiyini qeyd etmişdir. Keçmiş dövrlərdə məzmununa və formasına görə müxtəlif, çox maraqlı nəfis kitablar buraxılmışdır. Bu nəşrlər dünyanın bir çox ölkələrində də Azərbaycanı təmsil edir, onun haqqında biliklər verir. Ancaq Azərbaycanda miniatür kitab nəşrinin tarixi çox qısadır. Mən çox məmnunam ki, bu gün biz Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşrini də görürük. Şübhəsiz ki, bu, mədəniyyətimiz, kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir".

"Prezidentin qalibiyyət salnaməsi" adlı miniatur kitabın ikinci cildində Azərbaycan Respublikası "Kitab" cəmiyyətinin sədri, Miniatür Kitab Muzeyinin təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın "Qəlbləri duyan böyük insan" adlı yazısı verilib. Müəllif yazır: "Ümummilli Lider Heydər Əliyev Azərbaycanımızın müasir simasını müəyyən edən dahi şəxsiyyətdir". Zərifə Salahova həmin məqaləsində "etimad göstərməyi də, inanmağı da, inamı doğrultmayanda isə cəzalandırmağı da, utandırmağı da bacaran dahi rəhbər" adlandırdığı Heydər Əliyev barədə xatirələrini qələmə alıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 4 may.- S.15.